**Etibarlı sosial müdafiə mexanizmi**

Azərbaycanın 27 rayonunda vətəndaşların ünvanlı dövlət sosial yardımı almaq üçün elektron qaydada mğraciət etmək imkanı var

Azərbaycanın sosial yönümlü iqtisadi inkişaf modeli bazar iqtisadiyyatı şəraitində dövlətin sosial müdafiə funksiyalarının səmərəli şəkildə realizəsinə, xüsusilə də aztəminatlı vətəndaşların lazımi diqqət və qayğı ilə əhatə olunmasına imkan yaradıb. Respublikanın iqtisadi inkişaf dinamikasına adekvat olaraq, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına xidmət edən tədbirlər ardıcıllıqla həyata keçirilir.

2006-cı il iyul ayının 1-dən gerçəkləşdirilən ünvanlı sosial yardım sistemi (ÜSY) bu istiqamətdə nəzərəçarpacaq layihələrdən biri kimi diqqət çəkir. «Ünvanlı dövlət sosial yardımı haqqında» 21 oktyabr 2005-ci il tarixli qanunla bu sistemin tətbiqinə başlanılması əhalinin aztəminatlı təbəqəsinin sosial müdafəsində mühüm əhəmiyyətə malikdir. Ötən 6 ildə ünvanlı yardım sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılıb: yardımların təyinat müddəti 6 aydan 1 ilədək uzadılıb, əhatə dairəsi genişləndirilib, yardım üçün təqdim olunan sənədlərin sayı azaldılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, 2012-ci ilin yanvar-iyul aylarında respublikada 629129 nəfər ailə üzvünü əhatə edən 141378 ailəyə ünvanlı dövlət sosial yardımı təyin edilib. Bunlardan 79559-u 2012-ci ildə yardım təyin edilən, 39573-ü ilk dəfə ünvanlı yardım təyin olunan, 110062-si isə dövlətdən ilk dəfə yardım alan ailələrdir. Ünvanlı dövlət sosial yardımı alan ailələrdə 306308 nəfər yaşı 18-dək olan, 9669 nəfər 1 yaşadək olan ailə üzvləridir. Həmin ailələrdə sağlamlıq imkanları məhdud olan 18 yaşınadək ailə üzvlərinin sayı 9764 nəfər, üzrlü səbəblərə görə işləməyən əmək qabiliyyətli ailə üzvlərinin sayı 59926 nəfər təşkil edir. Yardım təyin olunan ailələrdən 58627-si 3 və daha çox uşağı olan, 666-sı tərkibində müharibə əlili olan, 18059-u tərkibində digər səbəblərdən əlil olan, 12552-si məcburi köçkün, 39-u isə şəhid ailələridir.

Ayda orta hesabla hər ailəyə 110,26 manat, hər ailə üzvünə isə 24,78 manat ünvanlı yardım ödənilir. Ünvanlı yardım alan ailələrdən 99,7 faizi yardımı plastik kartlar vasitəsilə alır. Ünvanlı yardımın hesablanması üçün ehtiyac meyarının məbləği də 2006-cı ildəki 30 manatla müqayisədə ötən müddətdə təxminən 3 dəfəyə yaxın artırılaraq bu ilin əvvəlindən 84 manata çatdırılıb. Əgər 2006-cı ildə ehtiyac meyarı yaşayış minimumuna nisbətdə 51,7% təşkil edirdisə, hazırda bu nisbət 77,8%-dir. İqtisadçı ekspertlərin fikrincə, bu artım dinamikası 2015-ci ilədək ehtiyac meyarının məbləğinin yaşayış minimumuna çatdırılmasına imkan verəcək.

Ünvanlı dövlət sosial yardımlarının təyinatına nəzarətin daha da gücləndirilməsi, həmin yardımların ödənişi sisteminin təkmilləşdirilməsi, yeni icra mexanizmlərinin sınaqdan keçirilməsi məqsədilə ödənişlərin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsinə başlanıb. Bununla da məmur-vətəndaş münasibətlərinin minimuma endirilməsinə nail olunaraq, ünvanlı sosial yardımların ödənişində maliyyə şəffaflığı təmin edilib.

Ünvanlı dövlət sosial yardımlarının ödənişinin mərkəzləşdirilmiş qaydada aparılması üçün ilkin olaraq paytaxtın Sabunçu, Binəqədi, Səbail, həmçinin Masallı, Ucar və Cəlilabad rayonları pilot rayonlar kimi seçilib. Yaxın vaxtlarda bu sistemin ölkənin digər rayon və şəhərlərində də tətbiqi nəzərdə tutulur. Eyni zamanda, nazirliklə əməkdaşlıq edən banklarla müqavilələrdə müvafiq dəyişikliklər edilib və yardım alan vətəndaşlara plastik kartların şəxsiyyət vəsiqəsi əsasında banklar tərəfindən birbaşa verilməsinə nail olunub.

Ünvanlı sosial yardım proqramının şəffaf şəkildə icra olunması, məmur-vətəndaş münasibətlərinin minimallaşdırılması və qərar qəbuletmə prosesində subyektiv amillərin aradan qaldırılması üçün bu sahədə alternativ müraciət mexanizmləri (poçt və elektron) hazırlanaraq uğurla həyata keçirilir. Artıq 27 rayonda vətəndaşlar ünvanlı yardımı almaq üçün alternativ qaydada, yəni poçt və elektron qaydada müraciət etmək imkanına malikdirlər. Yardımların təyinatında şəffaflığın artırılması, məmur-vətəndaş əlaqəsinin minimuma endirilməsi üçün yaradılan alternativ müraciət mexanizmlərinin bu ilin sonunadək bütün ölkədə tətbiqi nəzərdə tutulur.

Aztəminatlı əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasında, yoxsulluğun aradan qaldırılmasında ünvanlı sosial yardım sistemi ilə paralel olaraq ölkəmizdə mütərəqqi dünya təcrübəsindən irəli gələn mexanizmlərin tətbiqinə də üstünlük verilir. Bu məqsədlə hazırlanan

«Özünədəstək» - birdəfəlik ünvanlı sosial yardım proqramının icrası da uğurla davam etdirilir. Proqram şəxsi yardımçı təsərrüfatlarını inkişaf etdirmək istəyən aztəminatlı ailələrə bir il ərzində ala biləcəkləri ünvanlı sosial yardımın məbləğinin qabaqcadan birdəfəlik formada ödənilməsini nəzərdə tutur. Aztəminatlı ailələrin daimi məşğulluğunu, potensial imkanları müqabilində şəxsi təsərrüfatlarını yaradaraq inkişaf etdirmələrini, dövlət yardımından asılı vəziyyətdən çıxmalarını özündə ehtiva edən bu proqram ilk dəfə 2011-ci ildə Tovuz rayonunda sınaqdan keçirilib.

Əldə olunan müsbət təcrübə əsas götürülərək 2012-ci ilin birinci yarısında Füzuli, Ağdam, Beyləqan, Ağcabədi, Masallı, Xaçmaz, İsmayıllı, Ağstafa, Qazax, Tovuz, Daşkəsən rayonlarında, Sumqayıtda, habelə Bakının Nizami rayonunda icra olunub. Ümumilikdə, ölkənin 13 rayonu üzrə ünvanlı dövlət sosial yardımı alan ailələrdən 263-ü seçilərək «Özünədəstək» layihəsinə cəlb olunub. Proqramın mərhələli şəkildə bütün cəbhəyanı kəndlərdə və ümumən ölkənin hər bir rayonunda icra olunacağı bildirilir.

Samir MUSTAFAYEV